**UOT 78**
**https://doi.org/10.59849/2311-8482.2024.1.185**

**XALİDƏ MƏRDANOVA***

# NAXÇIVAN MUSİQİ SƏNƏTİNİN DÜNƏNİ VƏ BU GÜNÜ

*Azərbaycan musiqi mədəniyyəti özünəməxsus inkişaf dövrü yaşamışdır. Bu inkişaf özündə ən yüksək nailiyyətləri təcəssüm etdirərək müasir günümüzdə parlaqlığı ilə seçilən simasını qazanmışdır. XX əsrin ilk onilliklərinə qədər şifahi ənənələr əsasında formalaşan milli musiqi mədəniyyəti Ü.Hacıbəylinin yaradıcılığı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Milli musiqi mədəiyyətinin tərkib hissəsi olan Naxçıvan musiqi sənəti də formalaşan yeni ictimai-mədəni mühitdə bir çox sahədə əhəmiyyətli fəaliyyəti ilə diqqət çəkən musiqiçilər nəsli yetişdirmişdir.*

*Naxçıvan Azərbaycanın dünya sivilizasiyasında əhəmiyyətlli tarixi ənənələri olan bölgələrindən biridir. Uzun əsrləri əhatə edən tarixi inkişaf musiqi mədəniyyətinin də formalaşması və yüksək səviyyədə inkişafını təmin etmişdir. Bu inkişaf tarixin müxtəlif mərhələlərində özünəməxsus şəkildə davam etmiş və Naxçıvanda istedadlı musiqiçilər yaşayıb, yaradıcılıq fəaliyyəti ilə məşğul olmuşlar. Naxçıvanda musiqi mədəniyyəti xalq rəqsləri, aşıq musiqisi, xanəndəlik, bəstəkarlıq və ifaçılıq sənətinin timsalında özünün evolyusiyasını yaşamışdır.*

*Məqalədə Naxçıvanda musiqi mədəniyyətinin formalaşması, təşəkkülü və müasir mühitdə milli musiqi mədəniyyətinin inkişafında yeri və rolu haqqında danışılır. Burada Naxçıvan musiqi mədəniyyətinin əldə etdiyi tarixi nailiyyətlərə geniş yer verilmiş, ayrı-ayrı sahələrə xas xarakterik cəhətlər izah olunmağa çalışılmışdır.Bildiyimiz kimi Şərur yallı sənətinin Azərbaycan folklorunda əhəmiyyəti oduqca böyükdür. Təqdim olunan məqalədə qeyd olunur ki, Naxçıvanda yallı, aşıq musiqisi janrında yaranan musiqi nümunələri müasir zamanda öz əhəmiyyətini qoruyaraq, xalq yaradıcılığının mühüm tərkib hissəsi kimi dünya mədəniyyətinin nadir inciləridir.*

*Naxçıvanda aşıq yaradıcılığı özünün inkişaf xətti ilə vokal sənətinə mühüm təsir göstərmişdir. Məhz aşıq sənəti sahəsində fəaliyyət göstərən ifaçılar vokal sənətinin ilk nümayəndələri kimi qiymətləndirilir. Bütün bunlar Naxçıvanda vokal sənətinin iki-akademik və folklor vokalı sahələrinin formalaşmasını şərtləndirmişdir. Məqalədə hər iki sahə ilə məşğul olan ifaçıların adı çəkilir. Ü.Hacıbəylinin təşəbbüsü ilə Naxçıvanda musiqi məktəbinin açılmasının əhəmiyyəti vurğulanır, Naxçıvanda yaşayıb yaradan bəstəkarlar, yaranan musiqi kollektivlərin rolundan bəhs edilir.*

***Açar sözlər****: musiqi mədəniyyəti, xalq rəqsləri, yallı, folklor, xanəndə, aşıq, bəstəkar, muğam*

## Giriş

Qədim yaşayış məskənlərindən biri olan Naxçıvanda insanların məişətində musiqinin daim özünəməxsus yeri və rolu olmuşdur. Məlumdur ki, insan cəmiyyətlərində musiqi haqqında ilk məlumatlar səslər bərədə ilkin təsəvvürlərin yarandığı günlərdən etibarən formalaşmışdır. Ən qədim tarixi keçmişə malik alətlər zərb musiqi alətləri olaraq bilinir. Bakıya yaxın "Qobustan", Naxçıvanda isə "Gəmiqaya"dakı divar rəsmləri bu ərazilərdə yaşayan insanların həyatında ibtidai musiqi alətlərinin müşayiət etdiyi musiqinin əhəmiyyətini diqqətə çatdırır. Musiqi mədəniyyəti uzun əsrləri əhatə edən inkişaf prosesi yaşamışdır. Bu inkişaf prosesi Naxçıvanda formalaşan musiqili ənənələrdən də yan keçməmişdir. Əsrləri əhatə edən tarixi inkişaf nəticəsində Naxçıvanın musiqi həyatında, xalq rəqsləri, aşıq musiqisi, xanəndəlik sənəti, instrumentalizm son dərəcə yüksək yer tutaraq özünəməxsus inkişaf yolu keçmişdir.

## Əsas təhlil

Naxçıvan Şərq dünyasının güclü dövlətçilik ənənələri, memarlıq sənəti, ədəbiyyatı, şifahi ənənəli musiqi mədəniyyəti ilə tanınan mühüm mərkəzlərindən biri olmuşdur. Ticarət yollarının mərkəzində yerləşən bu ərazi qədim zamanlardan etibarən müxtəlif sənət adamlarının yaşayış məskəni kimi dünya incəsənətinə əvəzolunmaz tövhələr bəxş etmişdir. XII əsrdə Əcəmi dühası ilə yaradılan memarlıq abidələri, Nəimi fəlsəfəsinin dərin mahiyyətinin müxtəlif formalarda təzahürü, bünün da nəticəsində dərviş mədəniyyətinə xas xüsusiyyətlərin bu ərazidə mövcud olması Naxçıvanda musiqi mədəniyyətinin də özünəməxsusluğunu izah edir. Naxçıvanda Ordubada yaxın Gəmiqaya rəsmlərində eramızdan əvvəl IV və I minilliklərin mədəni nailiyyətlərini özündə daşıyan təsvirlər, Qızılvəng, Naxçıvanqala, Nəbiyurdunda əldə olunmuş maddi nümunələr milli xoreorafiya, ifaçılıq, vokal sənətinin ilkin nümunələrinin yaranmasında bu qədim yurd yerinin rolu haqqında dolğun məlumat verir. Əgər Gəmiqaya rəsmləri Tunc dövrü haqqında zəngin mənbədirsə, Qızılvəng arxeoloji tapıntısı e. ə. II minillikdə mövcud olan sənət nümunələrindən hesab olunur.

Gəmiqayada qaya üzərində həkk olunmuş solo və kütləvi rəqs səhnələri Qobustandakı qayaüstü rəsmlərdəki təsvirlərlə bənzərliyi ilə valehedicidir. Bu eyni soykökündən olan insanların

ortaq mədəni nailiyyətlərində oxşar elementlərin mövcudluğunu sübut edir. Rəsmlərin özünəməxsus hərəkətliliyi, insan fiqurlarının əksi rəqs elementləri haqqında fikir söyləməyə imkan verir. Təsvirlərin bir qismində Şaman mərasimi canlandırılıb. Belə ki, rəqsi idarə edən Aparıcı insan fiquru buynuzlu maska ilə təsvir olunub, digər yanda isə keçi və günəş rəmzləri görünür. Əllərin yana doğru geniş açılması, ayaqların bir-birindən aralı qoyulması ifanın sürətli olduğunu göstərir ki, bu da rəqsin iti tempini xarakterizə edir. Belə rəqslərə isə adətən aiynlərdə daha çox rast gəlinir və ifaçıları "ekstaz" halına gətirirdi. Bu elementlər sonradan "Sufilik" fəlsəfəsinin də əsaslarına keçir. Məlum olduğu kimi sufi rəqqaslar rəqs hərəkətlərini özlərindən keçənə qədər icra edirlər. Aparıcının başındakı keçi buynuzu isə böyük ehtimalla insanların əmək fəaliyyəti ilə bağlı təsvirlərdir. Günəş dini düşüncələrlə bağlıdır. Bu da onu söyləməyə əsas verir ki, insanlar maldarlıqda daha çox məhsul əldə etmək üçün dini ayin icra edirlər. Qaya divarlarındakı tək ifaçı obrazı da rəqsin sehirli məzmunundan xəbər verir.

Gəmiqaya rəsmləri Naxçıvan ərazisində, dağətəyi, Arazboyunda yaşayan insanların məşğulluğu ilə yanaşı, folklor sənəti, musiqi mədəniyyətinin ilk elementlərindən xəbər verir. Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində burada qədim zamandan etibarən köklü şəhər mədəniyyətinin mövcud olması haqqında tarixi məlumatlar əldə edilmişdir. Təsadüfi deyil ki, "Kitabi-Dədə Qorqud" dastanında Naxçıvanın ayr-ayrı bölgələrinin adı çəkilir, toponimlərə rast gəlinir. Bütün bunlar onu söyləməyə əsas verir ki, Naxçıvanda yaşayan insanların məişətində xalq yaradıcılığı, folklor özünün yüksək səviyyədə inkişaf prosesini yaşamışdır.

Naxçıvanda musiqi sənətinin inkişaf mərhələlərinin öyrənilməsində aparılan arxeoloji qazıntılar nəticəsində əldə olunan maddi mədəniyyət nümunələrinin əhəmiyyəti birmənalıdır. Naxçıvan şəhəri yaxınlığında tapılan saxsı qabların üzərində müxtəlif ornamentlər arasında rəqs motivlərinə rast gəlinməsi bu baxımdan maraqlıdır. Belə ki, qabların üzərindəki rəsmlərdə Azərbaycanda müasir zamanda da öz əhəmiyyətini qoruyan xalq rəqslərinə bənzər elementlər var. Rəsmlərdə təsvir olunan qadın və kişi yallı rəqsinə bənzər hərəkət halında təsvir olunmuşdur. Qadın əllərini yuxarı qaldırmış, kişi isə əlində yaylığa bənzər əşya ilə təsvir edilmişdir. Bu yallı rəqsinin ifası zamanı edilən hərəkət və istifadə olunan əşyaların maddi dəyərdə ustalıqla ifadə olunmasından başqa bir şey deyil. Rəsm öz-özlüyündə Naxçıvanda yallı mədəniyyətinin özünəməxsus ənənələrinin qədim zamanlardan etibarən mövcud olduğunu sübut edir.

Naxçıvan memarlıq abidələri musiqi sənətinin inkişafı haqqında bəzi qiymətli məlumatlar daşımaqdadır. Həmin abidələrdə ifaçılıq sənətinə xas elementlər mövcuddur. Naxçıvanda ifaçılıq sənəti xalq bayramlarında sənətkarların fəaliyyəti ilə sıx bağlı olmuşdur. "Novruz" bayramlarında Kosa və Keçinin şən dialoqları zurna, nağara alətləri ilə müşayiət olunmuşdur. Bu da həmin alətlərdə ifaçılıq vərdişlərinin peşəkar şəkildə formalaşması demək idi. Eyni zamanda "Məhərrəmlik" ayında təşkil olunan "Şəbih"lərdə də avazla oxumaq, ağılar söyləmək xanəndəlik sənətinin ayrı-ayrı elementlərinin inkiaşfını yetişdirirdi.

Maraqlıdır ki, Azərbaycanın dahi şairi Nizaminin əsərlərində rəqs səhnələri, bədii obrazların təsvirində musiqi elementləri böyük ölçüdə yer alır. Bu xalqın məişətindən götürülmüş elementlərin söz vasitəsilə ustalıqla ifadə olunmasıdır. Nizami öz həyatında müşahidə etdiyi hadisələri əsərlərində bu və ya digər formada təsvir etmişdir. Bu da onun əsərlərinin tarixin öyrənilməsində mühüm mənbə olaraq görülməsinə şərait yaradır və nəticədə belə bir qənaətə gəlmək mümkün olur ki, rəqs, söz, hərəkət sintezinə əsaslanan hər bir sənət nümunəsi öz mahiyyəti etibarilə olduqca qədim tarixə malikdir. Bu məlumatlar milli rəqs sənətinin öyrənilməsinə imkan yaradır. Naxçıvan mühitində bu sənətin inkişafı isə özünəməxsusluğu ilə diqqəti cəlb edir.

Naxçıvanda xüsusilə kütləvi şəkildə ifa edilən rəqs nümunələrinin məişətdə mühüm yeri olmuşdur. Bu yallı kimi orijinal rəqsin müxtəlif növ və formalarının meydana gəlməsini şərtləndirmişdir. Onuda qeyd etmək olar ki, Azərbaycanın müxtəlif bölgələrində yayılmış rəqs nümunələri öz üzərində hər bir bölgənin özünəməxsus ifa tərzini daşıyır. Məsələn "Tərəkəmə" rəqsi Bakı və Qarabağ bölgəsində bir qədər ağır hərəkətlərlə ifa olunursa, Naxçıvanda həmin rəqs iti tempi ilə diqqəti cəlb edir. Bu həmin ərazidə yaşayan insanların daha temperamentli olması ilə izah olunur.

Naxçıvanın hər bölgəsində rəqs sənəti həmin bölgəyə xas xüsusiyyətlər ilə yadda qalır. Elə rəqs nümunələri var ki, yalnız bir bölgə çərçivəsində öz məşhurluğu ilə diqqət çəkmiş, bir çox nümunələr isə sərhədi aşaraq, Azərbaycanın müxtəlif bölgələrinə qədər yayılmışdır. "Asta Qarabağı" belə rəqslərdəndir. Bu rəqs Naxçıvan, Xıncov, Şahbuzda yaşlı kişi və qadınlar tərəfindən ilk əvvəl

asta, daha sonra bir qədər hərəkətli tempdə ifa edilir.

Naxçıvanda yallı rəqsinin özünəməxsus tarixi və inkişaf dövrü var. Xüsusilə Şərur bölgəsinin bu sənət sahəsinin inkişafında rolu şübhəsizdir. Şərur el yallıları müxtəlif səpkili tədbirlərin hər zaman bəzəyi olmuş, bayram şənlikləri, xalq mərasimləri bu kütləvi rəqsin timsalında birlik və bərabərlik rəmzlərinə çevrilmişlər. Təsadüfi deyil ki, "Tənzərə" və "Köçəri" adları ilə tanınan kütləvi rəqs sənəti-yallının ecazkar nümunələri 2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilmiş qərarla UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir.

Hərfi mənası "Qızıl tənbətən" olan "Tənzərə" rəqsi Şərurun Çərçiboğan, Çomaxur kəndlərində geniş yayılmışdır. Burada qadın ifaçıların daha bər-bəzəkli, bütün zinnət əşyaları ilə rəqsə qoşulması onun adının mənasını ifadə edir. "Köçəri" isə bir yerdə qərar tutmayan, tez-tez məkan dəyişən mənası verir. Rəqsin xarakterinin müəyyən olunmasında bu ad ən düzgün ifadə vasitəsidir. Rəqs edildiyi zaman ifaçılar bir-birinin kəmərindən tutaraq dairəvi yallı gedirlər. "Köçəri" yallısı 2/4 ölçüsünə əsaslanır, onun ifası zamanı balaban, nağara ifadəli rəqs havası ilə rəqqasları müşayiət edir.

Ümumiyyətlə xoreoqrafik məzmununa görə yallıları iki növə ayıran Məmməd Məmmədov onları teatrlaşmış xalq oyunlarına bənzədərək qeyd edir: "Xoreoqrafiya məzmununa görə bu yallılar iki növə ayrılır: süjet və rəqs tipli oyunlar. Süjetli oyunlar müəyyən hadisəni təsvir etdiyinə görə teatrlaşmış xalq oyunlarına bənzəyir. Bu rəqslərdə zarafat, gülüş üstünlük təşkil etsə də, digər yallılarda ifa və yeriş elementləri diqqəti çəkir. "Tənzərə", "El yallısı", "Gopu", "Qazı-qazı", "Köçəri", "Urfanı", "Qaladan-qalaya" belə yallı nümünələrindəndir". [4 s.5]

Şərur yallıları uzun illər ərzində öz təravətini, ifa tərzini müxtəlif sənətkarların simasında qoruyaraq müasir dövrümüzdə peşəkar sənət sahəsi mahiyyətini saxlamaqdadır. Bu mənada ifaçı qruplarının rolu əhəmiyyətlidir. Belə qruplardan biri "Şərur" xalq yallı ansamblı 1924-cü ildə yaradılıb, təsadüfi deyil ki, ansamblın fəaliyyəti dahi bəstəkar Ü.Hacıbəylinin də diqətini cəlb etmiş, 1937-ci ildə Şərurdan SSRİ Ali Sovetinə deputat seçilən Ü.Hacıbəyli bu qədim yurd yerini "Azərbaycanın folklor mədəniyyətinin beşiyi" adlandırmışdır. Ansambl 1938-ci ildə Moskvada keçirilən Azərbaycan Mədəniyyəti və İncəsənəti ongünlüyündə maraqlı repertuarla çıxış etmişdir. Çıxışı Ü.Hacıbəylinin "Koroğlu", M.Maqomayevin "Nərgiz" operalarında öz əksini tapmış milli rəqs nümunələrinin ən gözəl tərəflərini izah edən əhəmiyyətli ifalardan biri kimi də qiymətləndirmək olar. Naxçıvan yallı sənəti ümumilikdə Azərbaycan rəqs mədəniyyətinin əsas tərkib hissəsidir. Bu qədim rəqs nümunələrində xalqın tarixi qəhrəmanlığı, vətən qızlarının paklığı, incəliyi, folklor sənətinin müdrüklüyü ifadə olunub. Təsadüfi deyil ki, tarixi keçmişi möhtəşəmliyi ilə təcəssüm etdirən bu sənət haqqında Ümummilli lider H.Əliyev "Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir... Yallını qoruyub-saxlayın. Bu, Naxçıvanın tacıdır" -deyib. (4 s5)

Yallı rəqsinin müasir günümüzdə öz simasının qorunub saxlamasında ifaçılar və rəqs ansambllarında bədii rəhbər kimi işləyənlərin zəhməti böyükdür. Bahəddin Əsgərov, Vasif İbrahimov, Əli Əsgərov, Səfər Qəhrəmanov, Yusif Həsənov, Nərminə Seyidova, Səttar Əhmədov kimi rəqqaslar yallı sənətinin incəliklərini dərindən bilən, bu sənəti yaşatmaq üçün fəaliyyətlərində fədakarlıq nümayiş etdirən sənət adamlarıdır. Onlar müxtəlif dövrlərdə Şərurda fəaliyyət göstərən rəqs anasmbllarına rəhbərlik etmişlər.

Ümumiyyətlə Azərbaycanda rəqs sənətinin inkişafında Naxçıvanda doğulmuş ifaçıların rolunu da vurğulamaq lazımdır. Milli rəqslərin mahir ifaçılarından olan Həsən Fərəcov belə sənətkarlardan biridir. 1974-cü ildə yaradılan "Şərur qonçələri" yallı ansamblı, 1978-ci ildən fəaliyyət göstərən "Nurani" rəqs ansamblı Naxçıvanda rəqs mədəniyyətinin inkişafında fərqlənən kollektivlərdir.

Naxçıvanda ifaçılıq sənətinin inkişafı toy, mərasim, el şənlikləri ilə sıx əlaqəlidir. Belə ki, hər bir alətdə ifaçılıq sənətinin kamil şəkildə mənimsənilməsi məhz bu kimi tədbirlərdə iştirak nəticəsində əldə olunan ifaçılıq vərdişləri və təcrübələrlə birbaşa bağlıdır. Buna görə də el məclislərində iştirak edən sənətkarlar eyni zamanda öz sənətinin sirlərini dərindən mənimsəyən peşəkar musiqiçilər kimi tanınmışlar. El məclislərində kollektiv ifa olunan rəqslər xalqın birliyini, bərabərliyini ifadə etməklə yanaşı, sevincdə və kədərdə xalq həmrəyliyini təcəssüm etdirirdi. Xüsusilə toy məclislərində rəqs nömrələrini müşayiət edən alətlər daşıdıqları dərin tarixi keçmiş, onları ifa edən usta sənətkarların peşəkarlığı haqqında məlumatların əldə olunmasına kömək edir. Yallı rəqsi də qədim zamanlardan bu

alətlərin müşayiəti ilə ifa edilib. Müasir dövrdə müşayiətçi rolunda iki zurna, nağara alətləri diqqəti cəlb etsə də, qədim zamanlarda bu rolu "tulum", "zurna", "ney" alətləri icra edib. Bu eyni zamanda ifaçılıq sənətinin inkişafını da şərtləndirən mühüm cəhətdir.

"Ney" özünəməxsus səs tembri olan nəfəsli musiqi alətidir. Onun düzəldiməsində ağac, qamış, bürünc materiallarından istifadə olunur. Bu alət hələ qədim zamanlardan Azərbaycanda geniş istifadə olunan musiqi alətidir. Təsadüfi deyil ki, Əbdülqadir Marağai "Məqasid əl-əlhan" risaləsində bu alətin iki növündən bəhs edir. Füzuli əsərlərində onun adını çəkir. Bu qədər geniş tarixi coğrafiyanı əhatə edən alətin ifaçıları arasında naxçıvanlılar da var. Onlardan biri 1885-1935-ci illərdə ifaçılığı ilə tanınmış Məşədi Bayramalı Şahbuz rayonun Kükü kəndində yaşamış, uzun illər Cənubi Azərbaycanda öz sənətini layiqincə təmsil etmişdir. M.Bayramalı Cənubi Azərbaycanda tez-tez təşkil edilən musiqili gecələrinin ən çox dinləninən ifaçılarından biri olmuş, onun ifasının müşayiəti ilə musiqi səhərə qədər pərəstişkarların qəlbini riqqətə gətirmişdir.

Qulu Cavadov, Nəsrullah İbadov, Qara Qəhrəmanov, Nəsrullah Süleymanov, Qasım Seyidov, Feyzalı İbadov, Şahhüseyn Səfərov ney alətində ifaçılıqları ilə məşhurlaşmış, 1920-1975-ci illərdə fəaliyyət göstərən Qulu Cavadov yay aylarında təşkil olunan "Açıq konsert"lərdə peşəkar ifaçılıq nümayiş etdirmişdir. Bundan əlavə Süleyman Həsənov, Vəli İsmayılov, Əli Süleymanov, Nəsrullah Süleymanov, Nəsrullah İbadov Naxçıvanda nəfəsli alətlərdə mahir ifaçılar kimi tanınmışlar. 1970-ci illərin ortalarında Şahbuz rayonunda yaradılmış "tulumu" ansamblı "Tulum" alətinin dünya səviyyəsində milli alət kimi təbliğatı işində əhəmiyyətli işlər görmüş, ölkəmizin hüdudlarından uzaqlarda milli folklor sənətini peşəkarlıqla təmsil etmişdir.

Azərbaycanda aşıq sənətinin inkişafında naxçıvanlı aşıqların rolunu qeyd etmək yerinə düşər. Məlum olduğu kimi aşıq sənəti sintetik sənət növü olub, söz, rəqs, musiqinin vəhdətinə əsaslanır. Bəzən elə olur ki, hər hansı bir bölgənin aşıq ifaçıları xüsusi məktəb formalaşdırır, bu məktəbin nailiyyətiləri digər bölgələrin ustad sənətkarlarının yaradıcılığına təsir edir, özünəməxsus inkişaf mərhələsi yetişdirir. Naxçıvan aşıqları Naxçıvan aşıq məktəbini formalaşdıran, özünəməxsus ifa tərzi ilə Azərbaycanın digər bölgələrində də məşhurlaşan sənətkarlardır.

Tarixin müxtəlif mərhələlərinin tədqiqatı Naxçıvanda aşıq sənətinin qədim kökləri olduğunu sübut etmişdir. AMEA-nın muxbir üzvü, professor Fəxrəddin Səfərovun tədqiqatlarında belə bir nəticəyə gəlinilmişdir ki, Naxçıvanda aşıq sənətinin kökləri XVI əsrə gedib çıxır. Belə ki, Ordubadın Düylün kəndindəki məzarüstü kitabələrdə digər əşyalarla yanaşı saz alətinin təsvirlərinə də rast gəlmək mümkündür. Nəzərə alınsa ki, Azərbaycanın bir çox bölgələri üçün ölmüş adamın məşğul olduğu sənətə aid nişanələrin onun məzar daşında əks olunması ənənəvi xarakter almışdı, o, zaman həqiqətən də məzarüstü kitabələrdə saz alətinin təsvirinin mənası başa düşülür.

Naxçıvanda aşıq sənəti qonşu bölgələrin ustad aşıqları ilə sıx əlaqəli şəkildə inkişaf etmiş və xüsusi mahiyyət daşıyan aşıq mühiti kimi formalaşmışdır. Bu mühitdə İrəvan, Urmiya, Türkiyə aşıq sənətkarlarının yaradıcılıq izləri hiss olunmaqdadır. Naxçıvan el aşıqları folklorda əhəmiyyətli olan aşıq şeiri janrlarının, dastanların inkişaf xəttini müəyyən etmiş, şeirin, sözün bədii dəyərini gücləndirmiş, ifaçılıq, xanəndəlik, vokal sənətinin təməl prinsiplərini müəyyənləşdirmişlər. Naxçıvanda aşıq ifaçılığı öz dövrünə görə müasir sayılan cəmiyyətdə bu sənət sahəsinə qarşı hiss olunan xüsusi maraq nəticəsində peşəkar səviyyədə inkişaf etmiş, onun ifaçılıq imkanları digər sahələrin də irəliləməsinə təkan vermişdir. Aşıq ifaçılığı vokal ifaçılıq sənətini də yetişdirmiş, professional şəkildə olmasa da, aşıqları Naxçıvanda vokal ifaçılığının ilk nümayəndələri kimi qiymətləndirmək olar.

Naxçıvanda aşıq sənəti sahəsində peşəkar ifaçılıq nümayiş etdirən sənətkarların yaradıcılığı tədqiq olunduğunda XVII əsrdən bu bölgədə aşıq mühitinin formalaşmasında bir çox sənətkarın rolunun izlərini görmək mümkündür. Belə sənətkarlardan biri "Ordubadlı Kərimin nağılı" və ya "Kərim və Süsən" dastanının yaradıcısı kimi tanınan Ordubadlı Kərimdir. XVI əsrdə Ordubadda yaşadığı ehtimal olunan Kərim burada aşıq sənətinin inkişafı üçün ilk təməl atan ustadlardandır. Kosacanlı Ağ Aşıq Allahverdi isə 1754-cü ildə Şərurda Kosacanda anadan olmuşdur. O, bayatı, gəraylı, qoşma, təcnis janrlarında şeirlər söyləmiş, bu şeirləri saz alətində özünəməxsus ifa tərzi ilə bəzəmişdir. Onun "Ağ Aşıq və Süsənbər" dastanı günümüzədək çatmış az sayda yaradıcılıq irsinin parlaq nümunələrindəndir.

Naxçıvan aşıqları arasında qadın sənətkarlar, xüsusilə Aşıq Nabatın yaradıcılığı çoxşaxəliliyi ilə diqqət cəlb edir. 1914-cü ildə Sərurun Pərçi kəndində anadan olan Nabat 1934-cü ildən Bərdədə

yaşamış, Bərdə, Yevlax, Gəncə aşıqları ilə deyişmələrdə iştirak etmiş, Aşıq Əsəd, Borsunlu Məzahir, Aşıq Teymur kimi sənətkarlarla yaradıcılıq əlaqəsi saxlamışdır. Onun aşıq kimi formalaşmasında müəllimi göyçəli Aşıq Musanın xüsusi rolu olmuşdur. 1940-cı ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı ongünlüyündə Aşıq Nabat klassik Azərbaycan incəsənətində folklor nümunələrinin layiqli ifaçısı kimi çıxış etmişdir.

Azərbaycan aşıq sənəti nümayəndələri arasında Dəvəçi Heydər, Aşıq Əli Xanxanımoğlu, Gülalı Məmməd, Aşıq Nəcəfli, Aşıq Məmmədcəfər, Aşıq Abbas Dəhri kimi naxçıvanlı sənətkarların da adı var. Bu sənətkarlar aşıq musiqisi janrlarının yardcısı kimi də tanınırlar. Azərbaycanda məşhur olan bir sıra aşıq havalarının yaranması məhz onların adı ilə bağlıdır. Bu aşıq havalarına misal olaraq "Ağır Şərili", "Orta Şərili" "Naxçıvan gülü", "Naxçıvani", "Cəlili", "Baş Cəlili", "Orta Cəlili", "Ordubadi", "Dərələyəz gəraylısı" və başqalarının adını çəkmək olar.

Maraqlıdır ki, təkcə aşıq havaları deyil, bir çox digər musiqi nümunələrinin də yaranması Naxçıvan musiqili mühiti ilə əlaqələndirilir. Günümüzdə xalq yaradıcılığı nümunələri kimi bilinən "Çit tuman", "Naxçıvani", "Naxçıvanın gədiyindən aşardım", "Dəsmalı", "Gəl-gəl, ay ellər gözəli" və s. bu kimi sənət əsəri bir çox sənətkarın ifasında səslənmişdir. Naxçıvanda xanəndəlik sənəti vokal sənətinin də inkişafını şərtləndirmişdir. Buna görə də vokal sənətinin hər iki sahəsi-folklor və akademik vokal Naxçıvanda bir-birini tamamlayan sahələr kimi formalaşmışdır. Təbii ki, xalq yaradıcılığına əsaslanan folklor vokal sənətinin tarixi daha qədimdir. Bu sahə xanəndəlik sənəti kimi bilinərək milli musiqi mədəniyyətinin vacib tərəfi kimi diqqəti cəlb edir.

Əgər aşıq sənəti Şərur, Şahbuz kimi bölgələrdə kamil sənət kimi formalaşmışdısa, Ordubad və Naxçıvan isə xanəndəlik sənəti sahəsində istedadlı ifaçıların beşiyi kimi tanınmışdır. Osmanlı padşahı IV Muradın saray musiqiçisi kimi fəaliyyət göstərən naxçıvanlı Muradağanın simasında Naxçıvan xanəndəlik məktəbinin tarixi keçmişinə nəzər salmaq mümkündür. Bu, Naxçıvanda XVII əsrdə məşhur ifaçıların yetişməsinə dair ən gözəl nümunədir. XIX əsrdə formalaşan yeni ictimai-siyasi münasibətlərin fonunda Naxçıvanda muğam ifaçılığı ilə məşğul olan sənətkarlar regionun digər bölgələrində tanınmağa başlayırlar. Molla İsmayıl, Kərbalayi Baxşəli, Əliş Xoşkeşenli, Məşədi Həsən, Həsənqulu, Məşədi Əbil kimi xanəndələrin adı çox zaman ifa etdikləri muğamlarla birlikdə çəkilir. Məşədi Həsən və Həsənqulu "Heyratı", Kərbalayı Baxşəli isə "Şur" və "Segah" muğamlarının mahir ifaçısı kimi tanınır. 1905-ci ildə Kərbalayı Baxşəli Tiflisdə özünün ifa etdiyi "Şur" və "Segah" muğamlarını lentə yazdırır.

XX əsrin ilk onilliyində Azərbaycanda bəstəkarlıq məktəbi formalaşır. Bu klassik musiqinin inkişafında yeni mərhələni yetişdirir. 1912-ci ildə Ü.Hacıbəylinin qardaşı Z.Hacıbəyli Naxçıvanda yaradıcılıq fəaliyyəti ilə məşğul olması burada musiqi mədəniyyətinin yeni istiqamətdən inkişafını şərtləndirir. Həmin ildə bəstəkarın "Evliykən subay" operettası , 1917-ci ildə Rza Təhmasibin quruluşu ilə Ü.Hacıbəylinin "Arşın mal alan" operettası tamaşaya qoyulur. Bu hadisə Naxçıvanda teatr ənənələrinin daha yüksək səviyyədə inkişafını təmin etməklə yanaşı, musiqili səhnə dramlarının Naxçıvan səhnəsində təcəssümünü təmin edib, burada akademik vokal sənətinin inkişafının təməlini müəyyən etdi. Bunun da nəticəsində milli operalarda əhəmiyyətli rol alan, vokal sənətinin inkişafında iştirak edən naxçıvanlı müğənnilər nəsli yetişir. Bunlara misal olaraq Xurşid Qacar, Hüsnü Qubadov, Abdulla Babayev, Əli Muradov, Elbrus Mehdiyev, Yaşar Səfərov, Yaşar Qurbanov, Əzizağa Məmmədov, Nuriyyə Hüseynova, Azər Zeynalov, Samir Cəfərov kimi folklor və akademik vokal sahələrində çalışan müğənnilərin adını çəkmək olar. XX əsrin 20-ci illərində Naxçıvan şəhərinin mərkəzi istirahət parkında nəfəsli alətlər orkestri və Şərq üçlüyü konsert proqramları ilə çıxış etməyə başlayır. Sonralar xalq çalğı alətləri orkestri həmin səhnədə konsertlər verir. Bütün bunlar şəhər əhalisi arasında klassik musiqiyə marağı artırır.

1937-ci ildə Ü.Hacıbəylinin təşəbbüsü ilə Naxçıvanda ilk Musiqi Məktəbinin açılması burada musiqi mədəniyyətinin müasir simasını müəyyən etdi. Artıq Naxçıvanda musiqi təhsilinin perspektivləri peşəkar musiqiçi ordusunun formalaşmasının təminatçısı rolunda çıxış etməyə başladı. Bunun da nəticəsində Naxçıvanda peşəkar musiqi kollektivləri yarandı. Bu kollektivlər sadəcə xalq musiqisi nümunələri deyil, peşəkar bəstəkar əsərlərinin ifasında öz sənətlərindən yaxşı mənada söz etdirməyə nail olmağı bacardılar. Naxçıvanda bəstəkarlıq sənətini özünə peşə olaraq seçən musiqiçilər nəsli formalaşdı. XX əsrin ilk onilliklərində Məmməd Nəsirbəyovun simasında Azərbaycan notlu musiqisinin inkişafında ilk peşəkar naxçıvanlı bəstəkar yaradıcılıqda yeni çizgi yaratdı. M.Ələkbərov,

M.Məmmədov, R.Məmmədov, Y.Xəlilov, K.Əhmədov Naxçıvanda yaşayıb yaradan bəstəkarlar kimi tanındı.

1958-ci ildə "Araz" Naxçıvan Dövlət Mahnı və Rəqs Ansamblının yaranması Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı xalq musiqisi nümunələrinin də peşəkar kollektiv tərəfindən ifasını yetişdirdi. Artıq naxçıvanlı sənətkarlar keçmiş SSRİ-nin müxtəlif bölgələrində professional şəkildə konsert proramları ilə çıxış etməyə başladılar. Dağıstan, Gücüstan, Özbəkistan, Qazağıstan dinləyiciləri bu sənətkarların ifasında milli bəstəkarlıq sənətinin ən gözəl nümunələri ilə tanış oldular. "Araz" ansamblının peşəkar fəaliyyətində tarzən, geniş ensklopedik muğam biliklərinə sahib olan, görkəmli sənətkar Əkrəm Məmmədovun rolu olduqca böyükdür. Kollektivin direktoru vəzifəsini icra edən Ə.Məmmədov öz sənətləri ilə milli musiqi mədəniyyətinin inkişafında xüsusi rol oynayan ifaçılar, müğənnilərin Naxçıvanda uğurlu çıxışlarını təşkil etməklə naxçıvanlı ifaçıların respublika səviyyəsində tanınmasını təmin etdi. Ə. Məmmədovun özü isə 1965-ci ildə Bakıda keçirilən Naxçıvan Mədəniyyəti günərində öz ifaçılıq qabiliyyəti ilə hər kəsi valeh etdi.

**Nəticə**

1984-cü ildə "Araz" Mahnı və Rəqs Ansamblının bazası əsasında Naxçıvan Dövlət Filarmoniyasının yaradılması Naxçıvan musiqi mədəniyyətində yeni mərhələ, yeni inkişaf perspektivini müəyyən etdi.1975-ci ildə ixtisaslı musiqiçi kadrlarının yetişdirilməsi zəruriyiliyini nəzərə alan Ümumilli lider H.Əliyevin şəxsi təşəbbüsü ilə Naxçıvanda Orta İxtisas Musiqi Məktəbinin yaranması, 1998-ci ildə Dövlət Universitetinin nəzdində İncəsənət fakültəsinin açılması Naxçıvan musiqi sənətinin dünəni ilə bu gününü, bu günü ilə gələcəyi arasında əzəmətli körpü rolunu icra edərək, yeni nailiyyətlərin başlanğıcının əsasını qoydu.

**ƏDƏBİYYAT**

1.Azərbaycan Folkloru Antalogiyası, Naxçıvan Folkloru. Bakı: Sabah, 1994,
2. Kərimli Ə. "Yallı" Bakı-Şirvan-2004
3. Kərimov R. "Naxçıvan musiqi mədəniyyəti tarixindən vokal ifaçılıq sənəti" Bakı-Azərnəşr 2006
4. Məmmədov M. "Şərur el yallısı" Həftə içi.- 2010.- 26-29 iyun
5. Vəzirov C. "Naxçıvan Dövlət Filarmoniyası" Bakı-Sabah- 2002

***Naxçıvan Dövlət Universitetinin baş müəllim***
***e-mail:merdenovaxalide@gmail.com***

**Xalida Mardanova**

**YESTERDAY AND TODAY OF NAKHCHIVAN MUSICAL ART**

Azerbaijani music culture has experienced a unique period of development. This development embodies the highest achievements and has gained a bright image in modern times. The national music culture formed on the basis of oral traditions until the first decades of the XX century has entered a new stage of development with the work of U.Hajibeyli.

Until the first decades of the twentieth century, the national music culture, formed on the basis of oral traditions, entered a new stage of development with the work of U. Hajibeyli.

Nakhchivan music, which is an integral part of the national music culture, has brought up a generation of musicians in the new socio-cultural environment.

Nakhchivan is one of the regions of Azerbaijan that has an important place in world civilization with its historical traditions. Historical development over many centuries has ensured the formation and high level of development of music culture. This development continued in its own way at different stages of history, and talented musicians lived and engaged in creative activities in Nakhchivan.

Music culture in Nakhchivan has experienced its evolution in the example of folk dances, ashug music, singing, composing and performing arts.

The article discusses the formation and formation of music culture in Nakhchivan, its place and role in the development of national music culture in the modern environment. sThe historical

achievements that determine the prospects for the future development of music culture in Nakhchivan are widely covered, and attempts are made to explain the features of different areas.

Sharur yalli art is of great importance in Azerbaijani folklore in general. Samples of music created in Nakhchivan in the genre of yalli, ashug music, while maintaining their importance in modern times, are considered to be rare pearls of world culture as an important part of folk art.

Ashug art in Nakhchivan had a significant impact on the vocal art with its development. Performers working in the field of ashug art are considered to be the first representatives of the vocal art. All this led to the formation of two academic and folklore vocal fields of vocal art in Nakhchivan. The article names the performers working in both fields. The importance of opening a music school in Nakhchivan on the initiative of U.Hajibeyli is emphasized. The role of composers and music groups living and creating in Nakhchivan is discussed.

**Keywords**: *music culture, folk dances, yalli,folkloresinger, ashug, composer, mugam*

**Халида Марданова**

**ВЧЕРА И СЕГОДНЯ МУЗЫКАЛЬНОГО ИСКУССТВА НАХИЧЕВАНА**

Азербайджанская музыкальная культура пережила уникальный период развития. Эта разработка воплощает в себе высшие достижения и обрела яркий образ в современности. Национальная музыкальная культура, формировавшаяся на основе устных традиций до первых десятилетий XX века, с творчеством У.Гаджибейли вступила в новый этап развития.

Нахчыванская музыка, являющаяся неотъемлемой частью национальной музыкальной культуры, воспитала целое поколение музыкантов в новой социокультурной среде.

Нахчыван - один из регионов Азербайджана, занимающий важное место в мировой цивилизации со своими историческими традициями. Историческое развитие на протяжении многих веков обеспечило формирование и высокий уровень развития музыкальной культуры.

Это развитие уникальным образом продолжалось на разных этапах истории, и в Нахчыване жили и творили талантливые музыканты. Музыкальная культура Нахчывана развивалась на примере народных танцев, ашугской музыки, пения, композиторского и исполнительского искусства. Музыкальная культура Нахчывана развивалась на примере народных танцев, ашугской музыки, пения, композиторского и исполнительского искусства.

В статье рассматривается формирование музыкальной культуры в Нахчыване, ее место и роль в развитии национальной музыкальной культуры в современных условиях.

Объясняет исторические достижения, определяющие дальнейшие перспективы развития музыкальной культуры в Нахчыване, особенности различных направлений

Искусство Шарур яллы имеет большое значение в азербайджанском фольклоре в целом.

Музыкальные образцы, созданные в Нахчыване в жанре яллы, ашугской музыки, сохраняя свое значение и в современности, считаются редкими жемчужинами мировой культуры как важная часть народного творчества.

Ашугское искусство в Нахчыване оказало значительное влияние на вокальное искусство своим развитием. Первыми представителями вокального искусства считаются исполнители, работавшие в области ашугского искусства. Все это привело к формированию в Нахчыване двух академических и фольклорно-вокального направлений вокального искусства.

В статье названы исполнители в обоих направлениях. Подчеркнута важность открытия музыкальной школы в Нахчыване по инициативе У.Гаджибейли. Обсуждается роль композиторов и музыкальных коллективов, живущих и творящих в Нахчыване.

**Ключевые слова:** *музыкальная культура, народные танцы, яллы, фолклор, певец, ашуг, композитор, мугамы*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 14.02.2024**
**Son daxilolma tarixi:16.03.2024**